

# MÖHTƏŞƏM 20 İL 2003 2023



# Ənənələrə sadiq, yeniliklərə açıq



## İlham Əliyevin prezidentliyi dövrü lənkəranlılar üçün bununla yadda qalıb

**2023-cü il başa çatır. Hər kəsin yaşı üstə bir yaş gəlir. Hamını yorub yola salan qoca dünya isə öz gedişində, öz işindədir - bir tərəfində dağıntılar, müharibə xarabalıqları, digər tərəfində əmin-amanlıq, rifah, inkişaf...**

Uzağa getməyək, öz doğma Azərbaycanımızı, regionlarımızı, elimizi-obamızı götürək. Bakını görən hər bir qonaq onun hüsnünə heyran olur. 30 il düşmən tapdağı altında qalıb tar-mar edilən, daş üstə daşı qalmayan - Qarabağ, Şərqi Zəngəzur aylar keçdikcə cənnətə çevrilir. Son 3 ildə gör burada nə qədər işlər görülüb! Yaşayış məntəqələri salınıb, yollar çəkilib, tunellər qazılıb, elektrik stansiyaları tikilib, digər sosialyönümlü layihələr həyata keçirilib. Laçın, Füzuli, Zəngilan rayonlarının əhalisi uzun həsrətdən sonra dədə-baba ocaqlarına qayıtmağa başlayıblar. Onların hər biri torpaqların geri alınmasında qanını-canını əsirgəməyən şəhidlərə, qazilərə, Ali Baş Komandan İlham Əliyevə sonsuz dərəcədə minnətdar olduqlarını bildirirlər.

Aparılan uzaqgörən daxili və xarici siyasət nəticəsində ölkəmiz hərtərəfli inkişaf yolundadır. Heç bir sahə, heç bir region diqqətdən kənarda qalmır. Lənkəranda da vəziyyət 1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra məcrasına düşdü. Separatçı qüvvələr yerinə oturduldu, sabitlik bərqərar olundu. Ölkəmizin gələcək inkişafını təmin edə biləcək kontraktlar imzalandı, islahatlar həyata keçirildi. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində isə İlham Əliyev qalib gəldi və bununla Azərbaycanın qalibiyyət dövrü başladı. Ulu Öndərin siyasi kursunu ilk günlərdən uğurla davam etdirən Prezident İlham Əliyev həlli vacib olan məsələlərdən biri - regionların sosial-iqtisadi inkişafı barədə I Dövlət Proqramını imzaladı. Və beləliklə, regionlar, o cümlədən Lənkəran dirçəliş dövrünə qədəm qoydu. Genişmiqyaslı tikinti-quruculuq, abadlıq işlərinə start verildi. İqtisadiyyat, təhsil, səhiyyə, mədəniyyət sahəsində həyata keçirilən tədbirlər adamların sabaha inamını artırdı. I Dövlət Proqramında nəzərdə tutulmuş işlər həyata keçirildikcə Lənkəranın sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşdı. "Yaxşı başlanğıc işin yarısıdır", - deyiblər. İkinci, üçüncü, dördüncü proqramlar çərçivəsində də əhalinin təklifləri, problem xarakterli məsələlər öz həllini tapdı. Lənkəranda yollar yeniləndi, Olimpiya İdman Kompleksi, Müalicə Diaqnostika Mərkəzi, Beynəlxalq hava limanı, onlarla təhsil, səhiyyə, mədəniyyət ocağı, istehsal müəssisələri, sosialyönümlü obyektlər tikilib istifadəyə verildi. Sahibkarlar üçün münbit şərait yaradıldı. Torpaq mülkiyyətçiləri verilən subsidiyalar, edilən güzəştlər sayəsində yenidən torpağa üz tutdular.

Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Lənkəranın da inkişafında başlıca rol oynadı. Son 20 il ərzində rayonda yeni zavod və fabriklər, o cümlədən uzun illər istifadəsiz qalmış və ya fəaliyyətini dayandırmış müəssisələr müasir tələblərə cavab verən avadanlıqlarla yenilənərək istifadəyə verildi. "Lənkəran Konserv" MMC, "Lənkəran Konserv" ASC, süd və dondurma emalı ilə məşğul olan "Pal Food" MMC, şirniyyat məhsulları istehsal edən Qənnadı Məhsulları Fabriki, "Azərxalça"ASC-nin Lənkəran filialı, "Beta" MMC, "Yaşıl Çay" FT, "Gilan Tea" MMC, "Sun Tea" MMC, çəltik emal edən "Green East" MMC, "Cənub Aqro" MMC, "Faran" MMC, kənd təsərrüfatı məhsullarının saxlanılması üçün müasir soyuducu anbarlar və avtomobillər üçün onlarla digər irili-xırdalı müəssisələr hesabına keçən il rayonda istehsal olunan sənaye məhsullarının dəyəri 135,8 milyon manata çatdı ki, bu da 2003-cü ildəkindən 12,7 dəfə çoxdur.

Aqrar sektora gəldikdə, keçən il (cari il üzrə son rəqəmlər açıqlanmayıb) kənd təsərrüfatında istehsal edilən ümumi məhsulun dəyəri 162,6 milyon manat olmuşdur və bu, 2003-cü illə müqayisədə 1,4 dəfə çoxdur. Ötən il çay plantasiyalarının ümumi sahəsi 552,8 hektara çatdırılmış və həmin sahələrdən 268,5 ton yaşıl çay yarpağı tədarük edilmişdir. Bundan əlavə, 933,5 hektar sitrus meyvə bağlarından 9 min 684,7 ton məhsul toplanmışdır. Artırılaraq 802,3 hektara çatdırılan çəltik sahəsindən isə 2 min 828 tondan çox məhsul əldə edilmişdir. Son illər çiyələk istehsalına da maraq artmışdır. "Green East", "Cənub Aqro" və "Faran" MMC-lər çəltik emalı ilə məşğul olurlar.











Yollara iqtisadiyyatın qan damarları da deyirlər. Bütün ölkədə olduğu kimi, Lənkəranda da yerli əhəmiyyətli, habelə kəndlərarası avtomobil yollarının tikintisi, yenidən qurulması, əsaslı təmiri istiqamətində çox işlər görülmüşdür. Ötən dövrdə 40 min əhalinin yaşadığı və uzunluğu 40 kilometr olan Lənkəran-Vilvan-Osaküçə-Türkəncil, 28 min əhalinin yaşadığı, uzunluğu 12 kilometr olan Şürük-Vel-Qamışovka, 47 min əhalinin yaşadığı, uzunluğu 18 kilometr təşkil edən Vilvan-Zövlə-Liman, 10 min əhalinin yaşadığı, uzunluğu 18,8 kilometr olan Liman-Nərimanabad-Balıqçılar, 13 min əhalinin yaşadığı, uzunluğu 11,2 kilometr olan Aşağı Nüvədi-Kənarmeşə-Şürük, 7 min əhalinin yaşadığı, uzunluğu 22 kilometr olan Hirkan-Daştatük-Biləsər, 11 min əhalinin yaşadığı, uzunluğu 7 kilometr olan Hirkan-Mamusta-Siyavar, 33 min nəfər əhalinin yaşadığı, uzunluğu 38,6 kilometr olan Səpnəkəran-Şürük-Sütəmurdov-Velədi-Gərmətük-Bala Şürük-Kosalar-Kərgəlan-Lüvəsər-Bəllədur-Qurumba avtomobil yolları yenidən qurulmuşdur. Bunlardan başqa, dağ kəndlərinə gedən yollar əsaslı və cari qaydada təmir edilmişdir.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çərçivəsində rayondakı 93 yaşayış məntəqəsindən 73-ü tam olaraq qazlaşdırılmış, əhali abunəçilərinin sayı 48,4 minə, qeyri-əhalininki 582-yə çatmışdır. Rayonda içməli su təchizatının və kanalizasiya sisteminin yaxşılaşdırılması üçün də tədbirlər görülür. Artıq Lənkəran şəhərinə, Şiləvar, Digah, Sütəmurdov, Velədi kəndlərinə yeni içməli su xətləri çəkilmiş, sakinlərin fasiləsiz və təmiz içməli su təminatı yaxşılaşdırılmışdır. Eyni zamanda rayon ərazisində uzunluğu 21 kilometr olan kanalizasiya xətti çəkilmişdir.

Tikilən binalar, salınan park və xiyabanlar bu gün Lənkəran şəhərinə xüsusi yaraşıq verir, onun gözəlliyinə gözəllik qatır. "Sahil" istirahət parkı, Heydər Əliyev xatirə parkı, Lənkəran Beynəlxalq Hava Limanı, "Cənub" Televiziya Şirkətinin binası, 7 mərtəbəli 14 yaşayış binası, Bayraq meydanı, "Xocalı soyqırımı" abidə kompleksi, Əsgər Əliyev parkı, Gənclər Mərkəzi, habelə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilən yaşayış evləri, sosial əhəmiyyətli obyektlər, digər yüzlərlə bina bu sıradandır.

Xalqımızın böyük oğlu Heydər Əliyev "Təhsil millətin gələcəyidir" deyirdi. Bütün işlərdə, məsələlərdə olduğu kimi, Prezident İlham Əliyev Ulu Öndərin bu fikrini də prioritet götürərək təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır və məktəblərin tikilməsini, köhnələrinin əsaslı təmir edilməsini, lazımi avadanlıqlarla təchiz olunmasını ön plana çəkir. 2003 və başa çatmaqda olan 2023-cü illər ərzində 1076 şagirdlik Lənkəran şəhər 7 saylı, Gəgiran kəndində 264 şagirdlik, Şıxakəran kəndində 432 şagirdlik tam orta məktəbləri tikilib istifadəyə verilmişdir. Eləcə də Heydər Əliyev Fondu hesabına 632 şagirdlik Haftoni kənd, 420 şagirdlik Nərimanabad qəsəbə və 360 şagirdlik Viravul kənd 2 saylı tam orta məktəbləri üçün yeni binalar inşa olunmuşdur. Bunlarla yanaşı, Əlizərin kəndində 20, Köhnəgəgir kəndində 40, Jidi kəndində 96, Türkəncil kəndində 80 və Kosalar kəndində 96 şagirdlik modul tipli binalar quraşdırılmışdır. Heydər Əliyev Fondunun vəsaiti ilə İnteqrasiya təlimli internat tipli gimnaziya əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumilikdə rayon üzrə 53 məktəb tikilmiş və ya əsaslı şəkildə təmir olunmuşdur.

Əhalinin sağlamlığı həmişə dövlətin diqqət mərkəzindədir. Bu istiqamətdə də Lənkəranda çoxsaylı işlər görülmüşdür. 2003-2023-cü illər ərzində Lənkəran Mərkəzi xəstəxanası əsaslı təmir edilmiş, Lənkəran rayonlararası Psixatriya xəstəxanası, 8 həkim ambulatoriyası, 7 feldşer-mama məntəqəsi tikilib istifadəyə verilmişdir. Lənkəran Regional Diaqnostika Mərkəzinin təyinatı dəyişdirilərək 70 çarpayılıq Regional Mərkəzə çevrilmişdir. Rayonlararası Onkoloji Xəstəxanada, Ağciyər Xəstəlikləri Dispanserində və Uşaq poliklinikasında da təmir işləri həyata keçirilmişdir.

2023-cü ilin ötən dövrü ərzində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin dəstəyi ilə TƏBİB-in tabeliyində olan Lənkəran Rayon Mərkəzi Xəstəxanasında tibbin müasir tələblərinə cavab verən kardiologiya üzrə ürək-damar cərrahiyyə şöbəsi açılmışdır. Liman Şəhər Ailə və Sağlamlıq Mərkəzində Təcili və təxirəsalınmaz tibbi yardım stansiyası, həmçinin Lənkəran şəhərində Süd vəzi Diaqnostika Mərkəzi və Çin Təbabət Klinikası istifadəyə verilmişdir.

Son 20 ildə Lənkəran rayonunda mədəniyyət ocaqlarının əsaslı təmiri və tikintisi, tarixi mədəniyyət abidələrinin bərpası və konservasiyası istiqamətində də uğurlu işlər həyata keçirilmişdir. 2004-cü ildə N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı əsaslı şəkildə yenidən qurulmuş, 2006-cı ildə Xalq sənətkarlığı şəhərciyi, 2008-ci ildə Heydər Əliyev Muzeyi, 2015-ci ildə Lənkəran Tarix Diyarşünaslıq Muzeyi (Xan evi) və Lənkəran Şəhər Mədəniyyət Mərkəzi əsaslı təmir olunmuşdur. Hazırda dövlət büdcəsi hesabına Dairəvi qalada əsaslı təmir işləri aparılır.

Dövlət başçısı İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqət və verdiyi dəstək Lənkəranda da özünü göstərir. Burada 2006-cı ildə "Zirvə" İdman Sağlamlıq Mərkəzi, yenə həmin ildə "Xəzər-Lənkəran" Futbol Stadionu, 2010-cu ildə Regional Boks Təlim Mərkəzi, 2018-ci ildə Olimpiya İdman Kompleksi idmançıların istifadəsinə verilmişdir.

Böyük Yaradan Lənkəran torpağından heç nəyi əsirgəməyib. Təbiət burada sanki hər şeyə öz əliylə sığal çəkib. Sıra dağlar, yaşıl ormanlar, çaylar, bulaqlar, şəlalələr, bir də mavi gözlü Xəzər. Elə bunlara görə də Lənkərana "Cənub mirvarisi" deyirlər. Bu gözəlliklər həm də Lənkəranın turizm mərkəzinə çevrilməsini şərtləndirib. 2006-cı ildə burada "Palıdlı sahil", "Bəşəru" istirahət mərkəzləri, 2008-ci ildə "Qafqaz" Turizm İstirahət Mərkəzi, 2017-ci ildə "Xəzər Palace" istirahət kompleksi, 2018-ci ildə "İstisu" Sağlamlıq Mərkəzi tikilib istifadəyə verilmişdir. Eko-turizmin inkişaf etdirilməsi üçün ötən 20 il ərzində Lənkəranın bir neçə kəndinə, eyni zamanda çay plantasiyalarına, sitrus meyvə bağlarına səyahətlər təşkil olunur. Bundan ötrü İstisu qəsəbəsində "Yaşıl Çay" fermer təsərrüfatında 22 nəfərlik "Nilado" hoteli və hotel tipli kənd evləri inşa olunmuşdur. Lənkəran şəhərində isə "Salyut", "Dəniz" və "Hirkan Park" hotelləri, Rvo kəndində "Riva Hill Resort Lankaran" hotel-restoran kompleksi fəaliyyət göstərir. Bu sahədə həyata keçirilən layihələr həm də yeni iş yerlərinin açılmasına, işsizlik probleminin həllinə vəsilə olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, 2003-2023-cü illər ərzində rayonda 53,5 mindən çox yeni iş yeri açılmışdır. Təkcə cari ildə qeyri-məşğul əhali üçün ödənişli əsaslarla 1260 ictimai iş yeri yaradılmışdır.

Qeyd etdiklərimiz son 20 ildə Lənkəranda görülən tikinti-quruculuq, abadlıq və digər sahələrdəki işlərin yalnız bir hissəsidir. Dövlət başçısı İlham Əliyev bu dövr ərzində 12 dəfə Lənkərana səfər etmişdir. Həmin səfərlər çərçivəsində rayon əhalisi ilə görüşlər keçirmiş, yeni obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir.

Məlum olduğu kimi, 2024-cü il fevral ayının 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Lənkəran əhalisi YAP tərəfindən İlham Əliyevin yenidən prezidentliyə namizədliyini irəli sürməsini ürəkdən alqışlayır. Əlimərdan Əliyev, Lənkəran Rayon Ağsaqqallar Şurasının üzvü:

- Prezident İlham Əliyevin fəaliyyəti göz qabağındadır. Necə deyərlər, görünən dağa nə bələdçi? O, Ulu Öndərin vəsiyyətlərini yerinə yetirən rəhbərdir. Şuşa düşməndən geri alınandan sonra Fəxri xiyabana gəlib "Mən xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim", - deməsi bu gün də qulaqlarımda səslənir. Prezidentimiz Azərbaycan tarixində misli-bərabəri görünməmiş bir iş gördü. Bu qəhrəmanlıq tarixdə həmişə yaşayacaq. Prezident İlham Əliyev Lənkəranın inkişafını, onun insanlarını həmişə diqqət mərkəzində saxlayır. Cənub bölgəsinin incisi olan Lənkəran son 20 il ərzində çox inkişaf edib, daha abad olub. Rayonumuzda işıq, qaz, içməli su problemləri həll edilib. Yeni müəssisələr hesabına çoxlu sayda iş yeri açılıb. Kənd təsərrüfatının mühüm sahələri olan çayçılığın, çəltikçiliyin inkişafı ilə bağlı böyük işlər görülür. Bunların nəticəsində adamların yaşayışı getdikcə yaxşılaşır. Bütün bunlara görə Lənkəran əhalisi seçkidə fəal iştirak edəcək və öz səsini İlham Əliyevə verəcək.

*Seyran CAVADOV,*
*"Azərbaycan "*